*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 5-6 (9237-9238) | 13 aprel 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

## Qarşımızda mühüm vəzifələr durur



**Qazax rayon İcra Hakimiyyətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Saatlı rayonunda keçirilən respublika müşavirəsi ilə əlaqədar olaraq tədbir keçirilmişdir. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirmişdir ki, möhtərəm cənab Prezident İlham Əliyevin Saatlı rayonunda keçirdiyi müşavirədə söylədiyi nitq bizim üçün bir proqramdır. Bu müşavirədən irəli gələn vəzifələr hər birimiz üçün mühüm fəaliyyət proqramı olmalı və biz bütün işlərimizi bunun əsasında qurmalıyıq.**

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bildirmişdir ki, son aylar Qazax rayonunun inkişafı ilə bağlı çox böyük işlər görülmüşdür. Lakin görüləcək işlər də çoxdur.

Rayonun infrastrukturu tamamilə özü də əsaslı şəkildə yenidən qurulur. Elektrik enerjisi ilə təminat yüksək səviyyədədir. Prezident İlham Əliyevin iştirakı ilə Daş Salahlı kəndində istifadəyə verilən yarımstansiyanın bu sahədə rolu böyükdür. Bu gün həm əhali, həm də bütün təsərrüfatları fasiləsiz elektrik enerjisi ilə tam təmin olunur.

Eyni zamanda, rayonumuz 100 faiz qazlaşdırılıb və onun təminatında da heç bir problem yoxdur.

Rayonun demək olar ki, bütün kənd yolları əsaslı təmir edilir, tikilir. Ötən il möhtərəm cənab Prezident İlham Əliyevin iştirakı ilə Qazax-Kosalar avtomobil yolu istifadəyə verilmişdir. Hazırda Çaylı kəndinə asfalt yol çəkilir və bu iş başa çatmaq üzrədir. Bu il daha bir neçə kəndə asfalt yollar çəkilərək əhalinin istifadəsinə veriləcəkdir.

Sosial obyektlərin tikintisi uğurla gedir. Mərkəzi xəstəxananın inşası böyük sürətlə aparılır. Uşaq bağçasının tikintisi isə yaxın aylarda başa çatdırılacaqdır. Tikinti-quruculuq işləri bütün sahələrdə aparılır. Bir sözlə, rayonumuzun hərtərəfli inkişafı Dövlət Proqramı əsasında uğurla gedir.

Biz qarşımıza böyük hədəflər qoymuşuq. Onlara çatmaq üçün ilkin olan işləri həyata keçirmişik və bu sahədə işlərimiz artan sürətlə davam edir. Bunun üçün bütün qüvvələrimizi səfərbərliyə almışıq və mövcud imkanlardan səmərəli istifadə edərək qarşımıza qoyulan vəzifələri yerinə yetiririk.

Başladığımız işlərin gedişatı belə deməyə əsas verir ki, biz düz yoldayıq və qarşıya qoyduğumuz hədəflərə yaxın vaxtlarda çatacağıq.

Gördüyümüz əsas işlərdən biri rayonda idarəçəlik sisteminin kökündən dəyişməsidir. İndiyə qədər məmurlarla xalq arasında boşluq var idi və bu da rayonda işlərin normal qaydada getməsinə maneçilik törədirdi. Biz bütün bu neqativ halları aradan qaldırdıq. Bu gün hər bir rayon sakini qəbul günlərində, eləcə də digər günlərdə rayon rəhbərliyinin, aparatın digər məsul işçilərinin qəbulunda ola və öz sözünü deyə bilir. Bir sözlə, bu gün birmənalı şəkildə deyə bilərəm ki, Qazaxda vətəndaş amili ön plana çəkilib.

Eyni zamanda, rayonda şəffaflığın yaradılması, sənaye və kənd təsərrüfatının inkişaf etməsi üçün bu sahələrdə münbit şərait yaradılmışdır. Bu məsələlər ilk gündən bir vəzifə olaraq qarşıya qoyulmuş və bu problem də öz həllini tapmışdır. Artıq rayonumuzda bütün sahələrdə tam şəffaflıq yaradılmış və bu da son nəticədə həm əhalidə inamın yaranmasına, həm də bütün sahələrin inkişaf etməsi üçün şəraitin münbit olmasına gətirib çıxarmışdır. Biz bu sahədə fəaliyyətimizi gələcəkdə də davam etdirəcəyik.

Qeyri-neft sektorunun inkişafı prioritet sahədir, xüsusilə indiki şəraitdə respublikamızda kənd təsərrüfatına xüsusi diqqət yetirilir. Keçən il qısa müddət ərzində bütün gücləri səfərbər edərək bu sahədə dönüş yarada bildik. Çox ciddi tədbirlər görüldü, texnika alındı, dövlət dəstəyi göstərildi, meliorasiya işləri aparıldı. Rayonumuzda bu sahədə artıq xeyli diqqətəlayiq işlər görülmüşdür. İlk növbədə əkin sahələri genişləndirilmiş və kənd təsərrüfatının yeni sahələri yaradılmışdır. Rayon ərazisində olan bütün su arxları, kanalları başdan-başa təmizlənmiş və sahələrin suvarılması üçün möhkəm zəmin yaradılmışdır.

Ötən il rayonumuzda ilk dəfə olaraq baramaçılıq və tütünçülüq sahələri sınaqdan çıxarılmış və yaxşı nəticələr əldə olunmuşdur. Bu il həmin sahələr daha da genişləndiriləcəkdir. Eyni zamanda bu il ilk dəfə olaraq Qazaxda şəkər çuğunduru əkininə başlamışıq. İnanıram ki, bu sahədə də önəmli nəticələr əldə edə biləcəyik. Bunun üçün bu il biz daha ciddi hazırlaşmışıq. Bu il bütün aqrotexniki tədbirlər ən yüksək səviyyədə təşkil edilmişdir. Ən müasir texnika alınmış, lazım olan bütün avadanlıq, gübrələr, dərmanlar, hər şey hazırdır. Əlbəttə ki, bu il biz daha çox məhsul gözləyirik.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirin sonunda öz tapşırıq və tövsiyələrini vermişdir.

**Elçin İSMAYIL**

## "MƏN HƏR ZAMAN SİZİNLƏYƏM"

### Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun Qarapapaq kəndində sakinlərlə keçirdiyi görüşdə bu fikir səslənmişdir

**Fəaliyyətə başladığı ilk gündən xalqın arasında olaraq əhalini narahat edən problemləri onların öz dilindən eşidən Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov mütəmadi olaraq kəndlərə gedir, mövcud çatışmazlıqları yerindəcə öyrənərək lazımi tapşırıqlar verir.**

İcra Başçısının Qarapapaq kəndində sakinlərlə keçirdiyi görüşdə də rayonumuzda, eləcə də Qarapapaq kəndində görülən işlərdən söz açılmış, mövcud problemlərdən danışılmış və onların həlli istiqaməti göstərilmişdir.



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək kənd sakinlərini salamlamış, onlara ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, mən fəaliyyətə başladığım ilk gündən kəndlərdə oluram. İstəyirəm ki, kənd sakinlərini narahat edən məsələləri onların öz dilindən eşidim. Bu, mövcud çatışmazlıqların aradan qaldırılmasında daha çox effekt verir.

Sonra R.Babaşov rayonda, eləcə də Qarapapaq kəndində həyata keçirilən tikinti-quruculuq işlərindən söz açaraq bildirmişdir ki, Qazax gündən-günə dəyişir, yeni görkəm alır. Yaxın vaxtlarda Qazax respublikamızın ən abad rayonlarından birinə çevriləcəkdir.

Qazax rayon Əli Əhmədov adına Qarapapaq kənd ümumi orta məktəbin direktoru Solmaz Hacıyeva, kənd sakinlərindən Elxan Əhmədov, Aybəniz Yaqubova və başqaları söz alaraq rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovu salamlamış, onlarla mütəmadi olaraq görüşdüyünə görə minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, siz daim bizimlə maraqlanır, bizim problemlərimizin həlli üçün əlinizdən gələni əsirgəmirsiniz. Biz kənd sakinləri sizin diqqət və qayğınızı hər zaman öz üzərimizdə hiss edirik. Qaldırılan problemlərin öz müsbət həllini tapması bizə olan diqqətin ən bariz nümunəsidir. Daha sonra çıxış edənlər kənddə olan bir sıra çatışmazlıqlardan da söz açmışlar.

Şəhid atası Sarı Hüseynov və şəhid anası Xətayə Yaqubova çıxış edərək hər zaman şəhidlərin adını uca tutduğuna, onların yaxınlarına, doğmalarına, ailə üzvlərinə diqqət və qayğı göstərdiyinə görə öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, siz hər zaman biz şəhid ailələri ilə yaxından maraqlanır, problemlərimizin həll olunmasına çalışırsınız. Biz şəhid ataları, anaları, övladları həmişə arxamızda bir güc, bir qüvvə hiss edirik. Həmin güc, qüvvə sizin bizə olan diqqət və qayğınızın təzahürüdür.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov sonda kənd sakinləri ilə mütəmadi olaraq görüşəcəyini deyərək bildirmişdir ki, mən hər zaman sizinləyəm. Görüş qurtardıqdan sonra İcra Başçısı çatışmazlıqların mövcud olduğu ərazilərə gedərək baxış keçirmiş və yerindəcə həll etmişdir.

**Elçin İSMAYIL**

## Həmişə xalqın arasında



**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov mütəmadi olaraq kəndlərə gedir, mövcud çatışmazlıqları yerindəcə öyrənərək lazımi tapşırıqlar verir. Rəhbər təyin olunan ilk gündən xalqın arasında olmağı, əhalini narahat edən problemləri onların öz dilindən eşitməyi iş fəaliyyətinin əsas hissəsi hesab edən icra başçısının kəndlərdə keçirdiyi görüşlər artıq bir ənənə şəklini almışdır.**

Növbəti belə görüşlərdən biri Ağköynək kənd sakinləri ilə keçirilmişdir. Həmin görüşdə rayonumuzda, eləcə də Ağköynək kəndində görülən işlərdən söz açılmış, mövcud çatışmazlıqlardan danışılmış və onların həlli istiqaməti müzakirə olunmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək kənd sakinlərini salamlamış və onlara ən xoş arzularını çatdırmışdır. Qeyd etmişdir ki, sizin hər birinizə məlumdur ki, bu gün mənim iş fəaliyyətimin əsas hissəsini kəndlərdə olmaq, sakinlərlə görüşmək təşkil edir. Məqsədim siz kənd sakinlərini narahat edən məsələləri sizin öz dilinizdən eşitməkdir. Çalışıram ki, qaldırdığınız bütün məsələlərin həllini sizlərlə birgə həll edək, çıxış yolunu birlikdə tapaq. Necə deyərlər güc birlikdədir. Mənə elə gəlir ki, bu görüşlər öz səmərəsini verir. Hər bir görüş müsbət dəyişikliklərlə yadda qalır.

Sonra R.Babaşov rayonda həyata keçirilən tikinti-quruculuq işlərindən söz açaraq bildirmişdir ki, diqqətdən kənarda qalan heç bir sahə yoxdur. İllər boyu yığılıb qalmış problemlər zaman-zaman öz həllini tapır. Bu gün şəhərdəki 76 çoxmənzilli binada əsaslı təmir işləri gedir. Tikintisi yarımçıq qalmış xəstəxana binasında inşaat işləri sürətlə davam etdirilir. Şəhərdə yeni üç mərtəbəli bağça tikilir. Eyni zamanda Daş Salahlı kəndində 2 bağça binasının əsaslı şəkildə yenidən qurulmasına başlanılmışdır. Xalçaçılıq fabrikinin tikintisi də davam etdirilir. Mətanət A şirkətinin inşa etdiyi zavod yaxın aylarda istifadəyə veriləcəkdir. Rayon ərazisindəki bütün Şəhidlər Xiyabanları və qəbiristanlıqları əsaslı şəkildə təmin olunmuşdur. Kosalar kəndinə yol çəkilmiş, Çaylı kəndində isə bu işlər başa çatmaq üzrədir. Yaxın vaxtlarda rayonun Kommuna, Hüseynbəyli və Cəfərli kəndlərinə də yeni asfalt yollar çəkiləcəkdir. Kənd təsərrüfatını su ilə tam təmin etmək üçün rayondakı bütün suvarma arxları təmizlənmişdir.

Bir sözlə, şəhərimiz, eləcə də kəndlərimiz gündən-günə dəyişir, yeni görkəm alır. İstər sosial, istərsə də iqtisadi sahədə böyük irəliləyişlər əldə etməyə başlamışıq. İqtisadiyyatın əsas sahələrindən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsi üçün rayonumuzda təqdirəlayiq işlər həyata keçirilir. Hər kəs çalışır ki, rayonumuz bu sahədə ən öncül yerlərdən birini tutsun. Bu isə yaxın vaxtlarda Qazaxın respublikamızın ən abad və iqtisadi cəhətdən güclü rayonlarından birinə çevriləcəyindən xəbər verir.

RİHB-nın Ərazi İnzibati Dairəsi üzrə nümayəndəsi Vadim Əmiraslanov çıxış edərək kənddə görülən işlər barədə məlumat verərək qeyd etmişdir ki, kənd qəbiristanlığına gedən yol qaydaya salınmış, zibil poliqonunda isə lazımi işlər görülmüşdür. İməcliklər yolu ilə su arxları təmizlənmişdir. Qarapapaq kəndində uzun illərdən bəri qazılmış artezian quyusu balansa alınaraq istifadəyə verilmişdir. Kəndin işıq xətlərinin əsas hissəsi dəyişdirilərək SİP kabellə əvəz olunmuş və transformatorların çoxu yenilənmişdir. Görülən bu işlərdə kənddə yaradılan işçi qrupunun da əməyi az deyildir.

Sonra kənd sakinlərindən Cavid Məmmədov, Ənvər Vəliyev, Fazil Arıxov, Nazim Abdıyev, Svetlana Poladova, Əhməd İsrafilov, Xaliddin Orucov. Sərhəd Məmmədov, Səfurə İbrahimova, Dilarə Nağıyeva və başqaları söz alaraq rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovu salamlamış, onlarla mütəmadi olaraq görüş keçirdiyinə görə minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, biz kənd sakinləri sizin diqqət və qayğınızı demək olar ki, hər zaman öz üzərimizdə hiss edirik. Bizi narahat edən problemlərin öz müsbət həllini tapması üçün verdiyiniz tapşırıqlar, tövsiyələr bizə göstərilən diqqət və qayğının ən bariz nümunəsidir.

Sonda rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov belə görüşlərin mütəmadi olaraq keçiriləcəyini bildirərək qeyd etmişdir ki, rayon sakinlərinin də köməyi ilə qarşıya çıxan problemlər öz müsbət həllini tapacaqdır.

**Elçin İSMAYIL**

## Hesabat-seçki yığıncağı keçirilmişdir




**Qazax rayon İcra Hakimiyyəti Başçısının Aparatı və İcra Hakimiyyəti Başçısının İnzibati Ərazi Dairələri üzrə Nümayəndəliklərinin ilk Həmkarlar İttifaqı Təşkilatının hesabat-sekçi yığıncağı keçirilmişdir.**

Sədr və katib seçildikdən, gündəlik təsdiq olunduqdan sonra Həmkarlar İttifaqı Komitəsinin sədri Sərdar Orucov məruzə ilə çıxış edərək 2014-cü ilin aprel ayından 2017-ci ilin mart ayınadək olan dövr üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının Aparatı və İcra Hakimiyyəti Başçısının İnzibati Ərazi Dairələri üzrə Nümayəndəliklərinin ilk Həmkarlar İttifaqı Təşkilatının fəaliyyəti haqqında məlumat vermişdir.

Sonra çıxışlar olmuşdur. Qazax RİHB Aparatının məsul işçilərindən aparıcı məsləhətçi-psixoloq Kəmalə Cəfərova, məsləhətçilər Vəfa Cəbiyeva və Aqil İsmayılov çıxış edərək həmkarlar ittifaqının yaranma tarixindən və fəaliyyətindən danışmışlar.

Tədbirdə qərar layihəsi təsdiq edildikdən sonra tərkibi 5 nəfərdən ibarət komitə üzvləri seçilmişdir. RİHB Aparatında baş məsləhətçi Sərdar Orucov, aparıcı məsləhətçi-psixoloq Kəmalə Cəfərova, aparıcı məsləhətçi Müşfiq Pirverdiyev, RİHB-nın Aşağı Salahlı kənd İƏD-si üzrə nümayəndəsi Zahid Mirzəyev, RİHB-nın şəhər İƏD-si üzrə nümayəndəliyində baş mühasib Raqif Xasməmmədov Qazax RİHB Aparatı və RİHB-nın İƏD-ləri üzrə nümayəndəliklərinin Həmkarlar İttifaqı Komitəsinə üzv seçilmişlər.

Sonda Qazax RİHB Aparatı və RİHB-nın İƏD-ləri üzrə nümayəndəliklərinin Həmkarlar İttifaqı Təşkilatından Dövlət İdarələri İctimai Xidmət İdarələri Həmkarlar İttifaqı Qazax rayon Komitəsinin VI konfransına tərkibi 14 nəfərdən ibarət olan nümayəndələr seçilmişdir.

Dövlət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon Komitəsinin sədri Yasin Əkbərov tədbirdə çıxış etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq yeni seçilən üzvlərə tapşırıq və tövsiyələrini vermişdir.

**"GÖYƏZƏN"**

# Bahar nə xoş gəlir...

## Rayonumuzda Novruz bayramı təntənəli şəkildə qeyd olunmuşdur





**Novruz bayramı münasibətilə rayonumuzda ümumrayon şənliyi keçirilmişdir. Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən Novruz şənliyi ilə əlaqədar Olimpiya İdman Kompleksinin qarşısı bayramsayağı, Novruz atributları ilə bəzədilmiş, səmənilər, xonçalar düzülmüş, Novruzun rəmzi olan böyük tonqal çatılmışdır. Xalqımızın ən sevimli bayramlarından olan Novruzun gəlişi rayon sakinlərində xoş əhval-ruhiyyə yaratmışdır.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, akademik Teymur Bünyadov, Qazax Xeyriyyə Cəmiyyətinin sədri, professor İlham Pirməmmədov və cəmiyyətin üzvləri, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov və digər qonaqlar Novruz şənliyində iştirak etmək üçün Olimpiya İdman Kompleksinə gəlmişlər.

Xalçalarla bəzədilmiş fayton meydana daxil olmuşdur. Bahar qız faytondan düşərək Rəcəb Babaşova və akademik Teymur Bünyadova Novruzun rəmzi olan səmənini təqdim etdikdən sonra tədbir start götürmüşdür. Zurnaçıların, aşıqların baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılmış, bayram şənliyinin iştirakçılarında xoş ovqat yaratmışdır.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov və akademik Teymur Bünyadov Novruzun rəmzi olan tonqalı alovlandırdıqdan sonra rayon rəhbərliyi və qonaqlar bayram ovqatlı sərgilərə, bayramsayağı bəzənmiş süfrələrə, pəhləvanların, idmançıların və uşaqların maraqlı çıxışlarına, əl işlərindən ibarət nümunələrə, qədim məişət əşyalarına tamaşa etmişlər. Adət-ənənələrimizə uyğun hazırlanmış Novruz təamları ilə tanış olmuş, ulululardan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayişinə baxmış, aşıqların ifasında qədim el havalarını dinləmişlər.

Bayram şənliyində Kosa və Keçəlin zarafatları, Bahar qızın söylədikləri şeirlər, məzəli əhvalatlar, Novruzla bağlı adətlər, oxunan rəngarəng mahnılar və müxtəlif rəqslər rayon sakinlərinin və tamaşaçıların sevincinə səbəb olmuşdur.

Sonra tədbir Olimpiya İdman Kompleksinin içərisində davam etmişdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək Azərbaycan xalqının min illər boyu qəlbində yaşatdığı ən əziz gün - Novruz bayramı münasibətilə xalqımızı təbrik etmiş, hər bir ailəyə sevinc, firavan günlər, əmin-amanlıq, Bahar bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulamışdır.

Aparıcı Afaq Gəncəli konsert proqramını açıq elan edərək tədbir iştirakçılarını bayram münasibətilə təbrik etmiş, rayon sakinlərinə ən xoş arzularını çatdırmışdır. Sonra Bakıdan rayonumuza dəvət olunmuş müğənnilər növbə ilə səhnədə yer almışlar.

Respublikanın əməkdar artistlərindən İzzət Bağırovun, Almaz Orucovanın, Elza Seyidcahanın, respublikanın xalq artisti Bilal Əliyevin və "Qismət" qrupunun ifa etdikləri bir-birindən şən, şux mahnılar şənlik iştirakçılarında əsl bayram əhval-ruhiyyəsi yaratmışdır.

Sonra səhnə idmançıların ixtiyarına verilmişdir. Onlar idmanın müxtəlif növlərində nümunəvi çıxışlar etmişlər.

Qədim el sənətini yaşadan aşıqların çıxışları da tədbirə toplaşanlar tərəfindən böyük coşqu ilə qarşılanmışdır. Əməkdar incəsənət xadimi, aşıq Əhliman, əməkdar mədəniyyət işçisi Solmaz Kosayeva, Sədaqət Ulduz, Camoy Qurbanov və Yaşar Gülümcanovun ifa etdikləri aşıq mahnıları tamaşaçıların bayram sevincini daha da artırmışdır.

Qazax rayon İcra Hakimiyyətinin təşkil etdiyi bayram şənliyi böyük ruh yüksəkliyi ilə başa çatmışdır.

**Elçin İSMAYIL**

























# Bizdə şeir də var, sənət də vardır...

## Xalq şairi Səməd Vurğunun anadan olmasının 111 illiyi qeyd olunmuşdur



**Qazax rayon İcra Hakimiyyətinin və Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının birgə təşəbbüsü ilə dahi şairin adını daşıyan parkda tədbir keçirilmişdir. Tədbirdə akademik Teymur Bünyadov, Qazax Xeyriyyə Cəmiyyətinin sədri, professor İlham Pirməmmədov və cəmiyyətin üzvləri, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov və digər qonaqlar, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.**

Tədbir iştirakçıları əsaslı şəkildə təmir olunmuş və yenidən qurulmuş parkda Səməd Vurğunun abidəsi önünə gül-çiçək dəstələri qoyaraq böyük şairin əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirmişdir ki, dərin klassik köklərə bağlı olan Azərbaycan poeziyası dünya mədəniyyətinə Xaqani, Nizami, Nəsimi, Füzuli, Vaqif, Vidadi, Seyid Əzim, Sabir və Şəhriyar kimi görkəmli sənətkarlar bəxş etmişdir. Onların sırasında XX əsr ədəbi-bədii dilimizin saflığını, büllurluğunu qoruyub saxlayan Səməd Vurğun da vardır. Səməd Vurğun zəngin xalq ədəbiyyatımızdan ustalıqla bəhrələnərək yeni bir sənətkarlıq məktəbi yaratmışdır.







O, baharda dünyaya göz açmışdı, özü də poeziyamızın baharı oldu. Aylar, illər, əsrlər ötəcək Səməd Vurğun yenə də indiki kimi sevələcək, onun sənət ardıcılları böyük ustadı xalqımızla birgə yad edəcəklər.

Tədbirin aparıcısı, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək dahi şairin həyat və yaradıcılığından danışmış, onun Azərbaycan ədəbiyyatındakı xidmətləri barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Akademik Teymur Bünyadov Səməd Vurğun haqqında xatirələrindən söz açmışdır.

Qazax Xeyriyyə Cəmiyyətinin sədri, professor İlham Pirməmmədov, şair Zaməddin Ziyadoğlu, professor Valeh Nəsibli Səməd Vurğun poeziyasından ətraflı danışaraq onun əsərlərinin gənc şairlər üçün bir örnək olduğunu qeyd etmişlər.



Qazax Dövlət Dram Teatrının direktoru Saqif İskəndərov Səməd Vurğuna həsr olunmuş şeiri ifa etmişdir.

Sonra AYB Qazax zona filialının ədəbi məsləhətçisi Mustafa Rasimoğlu, şairlərdən Tamella Poladlı, Səhlədar Hidayətoğlu Səməd Vurğuna həsr etdikləri şeirləri oxumuşlar.

Məktəblilərin ifasında böyük şairin şeirləri səslənmişdir.

Aşıqlardan Camoy Qurbanov, Yaşar Gülümcanov, Samir Cəlaloğlu və Hacı Qazaxlı şairin şeirlərinə həsr olunmuş mahnılar ifa etmişlər.

**Elçin İSMAYIL**

# İsmayıl Şıxlının heykəli önündə

**Azərbaycanlı nasir, ədəbiyyatşünas, publisist, yazıçı, ssenarist, Azərbaycanın xalq yazıçısı - İsmayıl Şıxlının doğum günü ilə əlaqədar ədibin heykəli önündə tədbir keçirilmişdir. Tədbir iştirakçıları xalq yazıçısının heykəli önünə gül-çiçək dəstələri qoymuş, əziz xatirəsini yad etmişlər.**



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, İsmayıl Şıxlı bütün həyat və yaradıcılığını azərbaycançılığa həsr etmiş əvəzolunmaz şəxslərdən olmuşdur. O, həyatı boyu həm ədəbi, həm də ictimai-siyasi fəaliyyətində azərbaycançılıq mövqeyində duraraq, milli mentalitet, vətənin azadlığı, müstəqillik duyğusu ilə yaşamışdır.

AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, akademik Teymur Bünyadov, Qazax Xeyriyyə Cəmiyyətinin sədri, professor İlham Pirməmmədov, cəmiyyətin üzvü Həsrət Pirməmmədov, şair Zaməddin Ziyadoğlu, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, gənc yazar Tural Ağatlı və başqaları çıxış edərək milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, milli mədəniyyətin, milli əxlaqın gənc nəslə çatdırılması baxımından ədibin əsərlərinin dəyəri barədə danışmışlar.

**Nüşabə HÜSEYNOVA**

# Rayonumuzda Mehdi Hüseynin doğum günü qeyd olunmuşdur

**Müasir Azərbaycan ədəbiyyatının formalaşmasında, ideya saflığı və bədii kamillik uğrunda mübarizələrində, bugünkü yüksək zirvələrə çatmasında görkəmli yazıçı, nəzəriyyəçi və tənqidçi Mehdi Hüseynin böyük rolu olmuşdur.**

Yurdumuza baharın qədəm qoyduğu bir vaxtda dünyaya gələn Mehdi Hüseynin rayonumuzda doğum günü qeyd olunmuşdur.

Bununla əlaqədar Qazax rayon İcra Hakimiyyətinin və Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının birgə təşəbbüsü ilə tədbir keçirilmişdir. Tədbirdə akademik Teymur Bünyadov, Qazax Xeyriyyə Cəmiyyətinin sədri, professor İlham Pirməmmədov və cəmiyyətin üzvləri, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov və digər qonaqlar iştirak etmişdir.




Tədbir iştirakçıları xalq yazıçısının heykəli önünə gül-çiçək dəstələri qoyaraq ədibin əziz xatirəsini dərin hörmətlə yad etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirmişdir ki, qüdrətli söz ustası Mehdi Hüseyn sözün əsl mənasında ədəbiyyat fədaisi idi. Ədəbiyyatın taleyi onu öz şəxsi taleyindən çox düşündürürdü. Bu, şöhrətli sənətkarın, alovlu publisistin, görkəmli dövlət xadiminin keçdiyi şərəfli həyat yolu, yaradıcılıq yolu ictimai varlığın bədii ifadəsi olan ədəbiyyatımızın böyük bir qolu və ayrılmaz hissəsidir. Bu gün də Mehdi Hüseyn ədəbiyyat tariximizdə mübariz bir tənqidçi kimi yaşayır.

Tədbirin aparıcısı, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək M.Hüseynin həyat və fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Sonra tədbirdə çıxış edən akademik Teymur Bünyadov Mehdi Hüseynin Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərindən söz açmış, onunla bağlı olan xatirələrini danışmışdır.

**Xuraman ƏZİMOVA**

# Qazaxda Aprel şəhidlərinin ildönümləri qeyd olunmuşdur

## AYRILIĞIN 1 İLİ





**Ötən ilin aprel döyüşləri zamanı ən uca zirvəyə - şəhidlik zirvəsinə ucalan kapitan Orucov Mühüd Qurban oğlunun və baş leytenant Namazov Elvin Məmməd oğlunun son mənzilə yola salındıqları gündən 1 il keçir. Bununla əlaqədar şəhidlərin doğulub boya-başa çatdıqları Fərəhli və Yuxarı Salahlı kəndlərində ildönümü mərasimləri keçirilmişdir.**



Həmin gün yüzlərlə insan Fərəhli və Yuxarı Salahlı kənd qəbiristanlıqlarında şəhidlərin məzarı başına toplaşmışdı. Mərasimlərdə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, aparatın məsul işçiləri, Milli Məclisin deputatları və digər qonaqlar, idarə, müəssisə, təşkilat rəhbərləri, Qarabağ Müharibəsi Veteranları, şəhidlərin döyüş yoldaşları, yaxınları, doğmaları, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.

Əvvəlcə mərasim iştirakçıları şəhidlərin məzarları üstünə qərənfillər qoyaraq əziz xatirələrini yad etmişlər. Şəhidlərin ruhuna dualar oxunmuşdur. Qazax rayon İcra Hakimiyyəti tərəfindən şəhidlərin məzarları üstünə əklillər qoyulmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov şəhidlərin məzarları önündə çıxış edərək onların ailələrinə başsağlığı vermişdir. Qeyd etmişdir ki, aprel döyüşləri zamanı Mühüd Orucovun və Elvin Namazovun göstərdikləri igidliklər hər bir azərbaycanlı üçün nümunədir. Məhz belə igidlərin sayəsində aprel döyüşləri zamanı yüz kilometrlərlə Azərbaycan torpağı düşmən tapdağından azad edilmiş, strateji yüksəkliklər qoşunlarımızın əlinə keçmişdir. Bildirmişdir ki, Azərbaycan ordusu aprel döyüşləri zamanı düşmənə sarsıdıcı zərbələr vuraraq öz gücünü göstərdi. Sübut etdi ki, bizim güclü ordumuz var və Azərbaycan əsgəri qələbə qazana bilər. R.Babaşov çıxışı zamanı qeyd etmişdir ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə kapitan Mühüd Orucov ölümündən sonra "İgidliyə görə" medalı ilə, baş leytenant Elvin Namazov isə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşlar. Şəhərin mərkəzində şəhidlərin xatirəsini əbədiləşdirən bulaq abidə kompleksləri inşa edilmişdir.



Sonra Milli Məclisin deputatları Kamran Nəbizadə, Ülviyyə Ağayeva, Qənirə Paşayeva, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firovsi Umudov, Qarabağ Qaziləri İctimai Birliyinin sədri Etimad Əsədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbə rəisi, polkovnik-leytenant Əjdər Babazadə, Təhsil Nazirliyi Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Yusif Alıyev, Qarabağ qazisi Kamil Musavi və başqaları çıxış edərək Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan, əsgərlərimizin cəbhədə əldə etdikləri uğurlardan söz açmışlar. Qeyd etmişlər ki, Vətəni uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Mühüd Orucov və Elvin Namazovun da əziz xatirələri hər zaman yad ediləcək və onlar daim qəlblərdə yaşayacaqdır.





Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, şair Cavanşir Rüstəm çıxış edərək bildirmişlər ki, aprel döyüşləri bizim həm qürur yerimiz, həm kədərimiz, həm tariximiz, həm də qalibiyyətimizdir. Sonra Vətənə, şəhidlərə həsr etdikləri şeirlərini oxumuşlar.

Çıxış edən şəhidlərin doğmaları mərasimlərdə iştirak edən qonaqlara öz minnətdarlıqlarını bildirərək qeyd etmişlər ki, bu gün bir daha əmin olduq ki, Mühüd də, Elvin də ölməmişdir. Onlar bu gün bizim qəlblərimizdə yaşayırlar.

Sonra məktəblilər Vətənə, şəhidlərə həsr olunan şeirlər söyləmişlər.

Mərasimlərdə şəhidlərin ata evlərində ehsan süfrələri açılmışdır.

**Elçin İSMAYIL**

# ÖLÜM SEVİNMƏSİN QOY...

## Qazaxda şəhid Orxan Əliyevin ildönümü qeyd olunmuşdur



**Qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşlərdə şəhid olan Əliyev Orxan Məhəmməd oğlunun ölümündən 1 il keçir. Bununla əlaqədar olaraq şəhidin doğulub boya-başa çatdığı Aslanbəyli kəndində ildönümü mərasimi keçirilmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov ildönümü mərasimində iştirak etmək üçün Aslanbəyli kəndinə gəlmişdir. Mərasimdə İcra Aparatının məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Qarabağ Müharibəsi Veteranları, şəhidin döyüş yoldaşları, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.

Şəhidin məzarı ziyarət olunduqdan sonra ruhuna dualar oxunmuşdur. Qazax rayon İcra Hakimiyyəti tərəfindən əklil qoyulmuşdur. Mərasim iştirakçıları şəhidin məzarı üstünə qərənfillər qoyaraq əziz xatirəsini yad etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov şəhidin məzarı önündə çıxış edərək aprel döyüşlərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən danışmışdır. Qeyd etmişdir ki, Aprel döyüşləri bizim ilk qalibiyyətimiz, zəfər salnaməmizin ilk misralarıdır. Ordumuzun qüdrəti qarşısında vahiməyə düşən düşmən Azərbaycan əsgərinin gücünü bir daha gördü və anladı ki, xalqımız işğal olunmuş torpaqlarını heç zaman güzəştə getməyəcək və öz ərazi bütövlüyünü təmin edəcəkdir. Aprel döyüşləri dünya ictimaiyyətinə öz ordusu haqqında yalanlar, miflər uyduran Ermənistanın təbliğatını alt-üst etdi.



R.Babaşov çıxışı zamanı Ali Baş Komandan İlham Əliyevin əmri ilə döyüşə hər an hazır olan silahlı qüvvələrimizin ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyi günün çox da uzaqda olmadığını, qəhrəmanlarımızın qanının yerdə qalmayacağını bildirmişdir.

Sonra Qarabağ qazisi Kamil Musavi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, mayor Vüqar Mirzəyev və başqaları çıxış edərək şəhidlərin göstərdiyi qəhrəmanlıqlardan, ordumuzun cəbhədəki uğurlarından söz açmış, Azərbaycan Ordusunun qüdrəti, gənclərimizin Vətən sevgisi, əsgərlərimizin döyüşlərdəki şücaəti, Silahlı Qüvvələrimizin gücü, xalq və ordu birliyi barəsində danışmışlar. Qeyd etmişlər ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Orxan Əliyev də heç zaman unudulmayacaq, onun əziz xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

Sonra məktəblilər Vətənə, şəhidlərə həsr olunan şeirlər söyləmişlər.

Şəhidin ata evində ehsan süfrəsi açılmışdır.

Əliyev Orxan Məhəmməd oğlu Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunmuşdur. Şəhərin mərkəzində şəhidin xatirəsini əbədiləşdirən bulaq abidə kompleksi inşa edilmişdir.

**Elçin İSMAYIL**



# Şəhid Süleyman Süleymanovun 40 mərasimi keçirilmişdir

**Azərbaycan Ordusunun düşmənlə təmas xəttində gedən döyüşlərdə şəhid olan hərbiçimiz - Süleymanov Süleyman Elçin oğlunun vəfatından 40 gün keçir. Bununla əlaqədar şəhidin doğulduğu Qazax rayonunun Daş Salahlı kəndində qırx mərasimi keçirilmişdir.**

Mərasimdə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov və Aparatın kollektivi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri, hərbi hissə və daxili qoşunların komandirləri, rayonun hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilatların əmək kollektivləri, Qazax RİHB-nın İnzibati Ərazi Dairəsi üzrə nümayəndələri, bələdiyyə sədrləri, kənd sakinləri və KİV nümayəndələri iştirak etmişdir.

Mərasimdə şəhidin ruhuna dualar oxunmuş, əziz xatirəsi yad edilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov şəhidin atası Elçin Süleymanova başsağlığı verərək bundan sonra da onlara hər cür diqqət və qayğı göstərəcəyini bildirmişdir. Qeyd etmişdir ki, bütün şəhid ailələrinə qayğı ilə yanaşmaq bizim hər birimizin vətəndaşlıq borcumuzdur.

Şəhidin atası da öz növbəsində onlara göstərdiyi diqqət və qayğıya görə ailəsi adından rayon rəhbərliyinə minnətdarlıq etmişdir.

# Bir zaman gələcəm, bir az səbr elə...

## Şəhid Süleyman Süleymanovun dəfnindən 40 gün ötür

**Vətən bir zirvədir. O zirvədə olmaq üçün on illər də lazım deyil. Bax, elə mənim "kiçik nağıl"ımın Böyük Qəhrəmanı kimi... O, ömrün yazından qışınacan on doqquzca addım ata bildi. Ancaq elə bir addım ki, adını ana torpağın yaralı bağrına qızılı hərflərlə yazdı... Ən müqəddəs, ən ali Şəhid adını...**

### Sənə ağı demərəm...

Ağı yaraşmaz sənə, nə yaşın var ki?... Qaralara tutulsa da, balaca canına, böyük arzularına yansa da anan, səhər dan yeri ilə oyanıb səni:

*Laylay çallam həmişə,*
*Karvan gedib yemişə.*
*Yastığında gül bitsin,*
*Yorğanında bənövşə.*
*Laylay qırılan qolum,*
*Laylay yarımçıq yollum...*

fərəh-kədər qarışıq laylasına, oxşamasına bələsə də, yanıb-yaxılsa da, başını qaldırıb həyət qapısında qırx gündür dalğalanan üçrəngli bayrağa baxanda dərdi gül açır, sənin kimi oğul böyütdüyü üçün ürəyi Aveyə dönür, göz yaşları Damcılının piçıltısına qarışıb içinə axır. Sən də həmişə elə o yaşda qalacaqsan. Torpaq özü yaşadacaq səni, səxası böyükdür onun, yolunda qurban gedənləri unutmaz, çəkər gözünün pərdəsinə, çəkər içinə. Anan bilir ki, bu xoşbəxtlik hər kəsə nəsib olmaz. Şəhidlik libasını hər kəs geyinə bilməz. O libasın sahibini də hər ana dünyaya gətirməz. Ona görə də bacıların əvəzi balaca Lalənin, balaca Şəbnəmin həsrəsini bir dizinə alıb sənlə bağlı xatirələrini həzin bir kövrəkliklə nağıla çevirib danışır: Biri vardı, biri yoxdu... Yox, həmişə var. Elə nağıllar var ki, qəhrəmanları ölməz. Süleymanın nağılı belə başlayır:

Onbirinci ayın 11-ci günündə gəldi dünyaya. Payızın ilkindi çağında günəş doğdu evimizə. Onda bağımızda nə Lalə vardı, nə də Şəbnəm. Bircə Məhəbbət varıydı. Peyğəmdər adı verdik, baba adı verdik ona. Süleyman çağırdıq. Bəlkə elə ona görə də lap balacalığından əli, dili düz böyüdü. Bəlkə ona görə də polis olmaq istədi. Nur yağdı üz-gözündən. Bəlkə ona görə də Quran oxudu, şəriət öyrəndi. Bəlkə, bəlkə də...

Səndən sonra yaşıl parçaya büküb saxladığı, bu yaşında əzbər bildiyin müqəddəs Kitab, başının üstündə müqəddəs Bayraq... Budur, səndən ona qalanlar - millətin təntənəsi. Nə xoş ki, o təntənə onun evində yaşanır. Əslində bu təntənə sizin evə Tanrı payıdır. Çünki atan da döyüşçü olub, Qarabağ döyüşçüsü. Sağlamlığına vurulan zərbədən də çəkdiyini içində çəkib. Nə xoş ki, belə atalar, belə analar var və belə oğullar böyüdürlər.

### Ölüm ayırdığı kimi birləşdirə də bilirmiş...

Rayon rəhbərliyi, hərbiçilər, qohum-qonşu, yad kəndlərin, yaxın rayonların sakinləri... maşın karvanı, izdiham.. Ölümüylə milləti birləşdirmişdi Süleyman. Bayraqlara, "Şəhidlər ölməz, Vətən bölünməz" nidalarına bürünmüşdü Daş Salahlı. Aveyin sinəsinə sığınan bu kənd çıxmışdı məcrasından. Silkələnirdi, meydan oxuyurdu yerə, göyə, çıxmışdı məhvərindən, uğurlayırdı şəhid balasını, yola salırdı əbədiyyətə. Hamı göz yaşı axıtsa da, müdafiə Nazirliyinin əməkdaşı, polkovnik Abdulla Qurbaninin gur səsindən onun "Şəhidi ancaq alqışlamaq lazımdır" fikrinə şərik çıxaraq bu böyük kənd Süleymanı əbədiyaşarlığa göndərirdi. Orada hər şey diqqətəlayiq, təqdirəlayiq idi. Gedişi ilə hər kəsə ibrət dərsi verə biləcək balaca bir ömür ulu bir millətin, ulu bir məmləkətin kimliyi sayılan müqəddəs Bayrağa bükülüb sonsuzluğa yol alırdı. Bu 19 yaşlı bir gəncin - Azərbaycan əsgərinin öz ölümü ilə milləti bir daha da araya gətirmək, bir əqidəyə - Vətən amalına kökləmək qələbəsi idi.

### Nə yaxşı ki...

Və birdən içindəcə, köçündəcə dağılan ürəyim gördüyü mənzərədən riqqətə gəldi. O, ağlayırdı, özü də hönkürərək. Balaca boyuyla böyük bir izdihamın önündə sərkərdə tək addımlayır... böyük bir insan selini arxasınca aparırdı... Onun yerişi fərqli idi. Yox... yox, mənə elə gəlmirdi, belə idi, bəli, fərqliydi. Addımları qətiydi, baxışları sərrast, yerişi dik... göz yaşları da fərqli gəldi mənə. Nə qədər özünü saxlamaq istəyirdisə də, bu boyda Qazaxı idarə edən o böyük insan bizdən biri idi. Əslən qazaxlı olmasa da, əsl azərbaycanlı idi. Yolun yarısında dizləri bükülən ananı yerdən qaldırmaq üçün də ilk olaraq o, əlini uzatdı. Bu da bu millətin, bu kəndin, o ailənin təntənəsi idi. Dövlətin, ordunun millətlə birlik təntənəsi. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov... Natiqliyin yüksək səviyyəsinə nail olan bu insan 19 yaşlı bu gəncin yarımçıq həyatına o qədər yanırdı ki, cümləsini belə bitirə bilmədi. Göz yaşları selə-suya dönüb Süleymanın yoluna uğur çiləyirdi. Bu günə qədər də Süleymanovlar ailəsinin üzvünə çevrilən Rəcəb müəllim el-obanı da başına yığıb, o ailəyə böyüklük edərək balaca Süleymanın yoxluğunu onlara unutdurmağa çalışır. O, da bilir ki, bu mümkün deyil. Hər halda dərdliyə dərmənd olmaq da Allaha sevgidi, Allah sevgisidi. Nə yaxşı ki, belə adil, rəhmdil, dar gündə arxa, kömək ola biləcək belə başbilənləri var millətimin.

### Səndən qalan xatirə...

Yetmədi ünvanına, yetməsə də dillər əzbəri olan misraların adını bilmədiyimiz o pünhan gözəldən də pünhan qalmaz:

***Sevgilim, vaxt gələr ana olarsan,***
***Oğlunun adını Əsgər qoyarsan.***
***Oğlun hərbiyə çağrılan zaman,***
***Unutduğun əsgəri yada salarsan.***

***Sevgilim, götür bu şəklimi saxla yadigar,***
***Bəlkə bu şəklim sonuncu oldu.***
***Yolumu gözləmə mənki əsgərəm,***
***Bəlkə də qismətim şəhidlik oldu.***

Allah adamıydın, bəlkə ona görə olacaqlar əyan olurdu sənə: "234 gün, 8 ay, 31 həftə və son"... Sanılı günlərin sonunu gözləyərkən, sonsuzluğa yol alan anasının solmaz çiçəyi... atasının döyünən ürəyi... bu sonluq bitməz... sən hər bahar yaz yağışında, boynu bükük bənövşənin-sevdiyinin ürkək baxşında gələcəksən. Sən hər yaz göy qurşağının yeddi rəngində görünəcəksən. Sən "Vətən sağ olsun" - deyə sənin əvəzinə atanın bağrına basdığı Bayrağa, torpağa olan sevgiyə bələnəcəksən. Sən... Sən ilin, günün, ayın hər anında anılacaqsan. O qızın gözlərində yaşayacaqsan. O, da barışacaq taleyi ilə. Qürur duyacaq səninlə...

### Son söz əvəzi

Əziz oxucu! İstədim ki, bu yazıda sən də tanıyasan onu. Yolu Qazaxdan başlayıb Ağdamda bitən şəhid Süıeymanı. Allah özü belə məsləhət bilir, neyləmək olar, analar, bacılar? Oğullar Vətənə, bacılar qardaşa qurban... Sənin də oğulun Allahın özünün sevib-seçdiyi idi, Mənsurə, özü yaratmışdı, özü də apardı uca dərgahına. Ağlama, sil gözünün yaşını. Şəhid anaları ağlamaz. Elə Vətən oğulu böyütdüyün üçün əllərindən öpüləsidir. Sən də başını uca tut, əymə qamətini. Ata! Allah yaratdığı bəndəsinin hər birini yer üzünə bir niyyətlə göndərir. Sənin də balanın payına şəhidlik düşüb. Nə qədər Azərbaycan var, Süleyman da yaşayacaq.

Gördüklərimdən, eşitdiklərimdən özümdə bir təşəkkür borcu hiss etdim, Rəcəb müəllim! Bilirəm vətəndaşlıq, eləcə də rayonun başçısı olaraq özünüzə borc bilsəniz də göstərdiyiniz münasibətə, istiliyə, doğmalığa görə Süleymanın müəllimləri adından da minnətdarıq. Var olun!

**Nazı PAŞAYEVA,**
*A.Əmilov adına Daş Salahlı kənd 1 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi*

## İTMİŞDİR

**Yaqubov İslam Səhrab oğlunun adına verilmiş JN-2357 saylı torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

**Qazax rayon dövlət texnik inventarlaşdırma və mülkiyyət hüquqlarının qeydiyyatı idarəsi tərəfindən Abbasova Gülsüm Abdulla qızının adına verilmiş reyestr nömrəsi 03/1567, inventar nömrəsi 1567 olan qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 805

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
Foto: Mehman Vələdov.